“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 21 sentyabr 2022-ci il №73 (2684) https://mod.gov.az Qiyməti 30 qəpik

Prezidentin Mətbuat Xidmətinin Məlumatı

Sentyabrın 17-də Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Telefon söhbəti zamanı regionda davamlı sülhün təmin olunması, gərginliyin aradan qaldırılması, əldə olunmuş atəşkəs razılaşmasının təmin edilməsi və Ermənistan-Azərbaycan münasibətlərinin normallaşdırılması prosesi ilə bağlı fikir mübadiləsi aparılıb.

* * *

Sentyabrın 18-də ABŞ dövlət katibi Antoni Blinken Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Telefon söhbəti zamanı əldə olunmuş atəşkəs rejiminin möhkəmləndirilməsi, regionda davamlı sülhün və təhlükəsizliyin təmin olunması, Ermənistan-Azərbaycan münasibətlərinin normallaşdırılması, o cümlədən sülh müqaviləsi üzrə danışıqlar, nəqliyyat dəhlizlərinin açılması istiqamətində səylərin davam etdirilməsinin vacibliyi qeyd olunub.

“Region ölkələrinin Qarabağ mövzusunda Azərbaycanın ərazi bütövlüyünə qeyd-şərtsiz dəstək verməsi vacibdir”

Ermənistanın Azərbaycana qarşı təxribatlarından əl çəkməsi, əvvəllər götürdüyü öhdəliklərə uyğun hərəkət edərək mümkün qədər tez sülh və əməkdaşlığa diqqət yetirməsi olduqca əhəmiyyətlidir.

AZƏRTAC xəbər verir ki, bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan jurnalistlərə açıqlamasında bildirib.

Türkiyə Prezidenti qeyd edib ki, arzumuz regionumuzda aparılan normallaşma proseslərini uğurla başa çatdırmaq, regional sülh və sabitliyi daimi olaraq təmin etməkdir. Bütün region ölkələrinin Qarabağ mövzusunda Azərbaycanın ərazi bütövlüyünə qeyd-şərtsiz və güclü dəstək verməsi vacibdir.

Rəcəb Tayyib Ərdoğan oktyabrda Zəngilan Beynəlxalq Hava Limanının açılacağını da bildirib.

“Biz sabahın artilleriyaçılarıyıq!”

Payız özünü göstərməkdədi. Hərbi xidmət üçün fəslin necə keçməsinin fərqi yoxdur - tapşırıqlar həmişə məsuliyyətlə yerinə yetirilir. Bu baxımdan döyüş hazırlığı dərsləri də bütün fəsillərdə təlimata müvafiq keçirilir.

“N” hərbi hissəsində artilleriyaçıların dərs prosesini izləyirik. Heyət nəfərlərinin cəld və çevik hərəkətlərini peşəkarlığın göstəricisi bilirik. İstənilən prosesdə aşılanan biliklər səmərəli olanda uğur daha asanlıqla qazanılır. Bugünkü məşğələni məhz bu düşüncələrlə izləyirik. Onların bir-birini tamamlayan hərəkətləri ümumi tapşırığın icrası deməkdir. Bu anlarda bir daha qətiləşdiririk ki, dərs və təlimləri uğurlara gedən yol adlandıranlar nə qədər haqlıdırlar. Doğrudan da, gələcəkdə qazanılacaq hərbi vərdişlərin, hərbi vərdişlər əsasında hərbi uğurların bünövrəsi təcrübəli zabitlərin əməyi sayəsində qoyulur.

"Artilleriyanın döyüşlərdəki əvəzsiz rolundan mütəxəssislər çox yazıb, çox deyiblər. Reallığı əks etdirən bu dəyərli fikirlər bütün tarixi dövrlərdə, bütün məqamlarda qiymətini itirmədən gerçəkliyini həmişə təsdiqləyir. Artilleriyadan söz düşəndə, onunla bağlı fikir səsləndirəndə istinad kimi böyük hərbi xadim, görkəmli sərkərdə, tam artilleriya generalı Əlağa Şıxlinskinin məşhur "Artilleriya müharibənin Allahıdır" kəlamı yada düşür. Bu çox dəyərli və qiymətli fikir dahiyanə şəkildə deyilmiş bənzərsiz kəlamdır. Artilleriyanın döyüşlərdəki rolunu, yerini bundan dəqiq qiymətləndirmək mümkün deyil", - şəxsi heyət bu fikirləri maraqla dinləyir, dinlədikcə qürurlanır. Baş leytenant Habil Hüseynzadə deyir ki, mən həyatımdakı iki seçimimlə qürur duymuşam - bir hərbçi peşəsini seçəndə, bir də hərbi xidmətə artilleriyaçı ixtisası ilə başlayanda. Bir azdan söz sözü çəkəcək, baş leytenant Vətən müharibəsindən, bu müharibədə artilleriyanın, o cümlədən bu hərbi hissənin fəaliyyətindən də danışacaq. Onun dediklərini əsgərlər eşidib, indi bizimlə birlikdə daha maraqla dinləyəcəklər. Müharibənin ilk günlərində Murovdağ istiqamətində artilleriyaçıların döyüşlərindən biz də söz açırıq. Artilleriya ilə düşmənə vurulan zərbələrin nə olduğunu gözəl təşbehlərlə ifadə edirik. Dərs prosesi davam edir. Müşahidəçiyik - baxırıq, görürük, gördüklərimizi gözlərimizə, gözlərimizdən ürəyimizə köçürürük...

Dünyanın harasındasa baş vermiş müharibələri, döyüşləri artilleriyasız təsəvvür etmək mümkün deyil. Bu fikrin səsləndirildiyi vaxtdan yüz ildən çox zaman keçsə də, indi də qiymətlidir.

Mayor İlqar Sadıqov deyir ki, silahlanmaya yeni-yeni silahlar daxil edilir. Bu silahların bir hissəsi artilleriyaçıların sərəncamına verilir. Artilleriya silahlarının da yeni növləri, daha təkmilləşdirilmiş modelləri yaradılır. Bakıda keçirilən “ADEX-2022” silah sərgisində bunun bir daha şahidi olduq. Yeni artilleriya qurğuları əvvəlki nəsillərə nisbətən daha uzaq məsafədəki hədəfləri dəqiq vurmağa qadirdir. Deməli, bu gün ordu sıralarında xidmət edən hərbçilərimiz yaşadıqları zamanla ayaqlaşmalı, daha bilikli, daha zəkalı və daha hazırlıqlı olmalıdırlar.

Fikrini əsgərlərə xitabən tamamlayır:

- Hazırlıqlı olmalıdır ki, bu qurğuların taktiki-texniki xüsusiyyətlərini dərindən mənimsəməklə hədəfləri dəqiq vurmağı bacarsınlar. Təbiidir ki, hazırlıqlı əsgər düşmən hədəflərini daha dəqiq vuracaq.

Dərslərin əsas məqsədi artilleriya qurğusunun istismarını daha mükəmməl öyrənmək, onun atış xüsusiyyətlərinə daha dərindən bələd olmaq, döyüş hazırlığını daha da artırmaq, ehtimal edilən düşmən hədəflərini dəqiq və vaxtında vurmağı öyrənməkdir. Bunun üçün də onlar nəzəri biliklərini belə məşğələlərlə möhkəmləndirir, komandirin verdiyi əmr və tapşırıqları bacarıqla yerinə yetirirlər.

Yaranan fasilə zamanı baş leytenant Habil Hüseynzadə fərəh hissi ilə deyir ki, bu gün məşğələ keçən şəxsi heyət hərbi bilik və döyüş vərdişlərini mükəmməl mənimsəyiblər. “Hərbi hissəmizin şəxsi heyəti İkinci Qarabağ müharibəsində ordumuzun üstünlüyü ilə davam edən döyüşlərdə yuxarı komandanlığın verdiyi bütün əmrləri məsuliyyətlə, dəqiqliklə yerinə yetirdi. Dəqiq atəş zərbələri ilə düşmənin neçə-neçə mövqeyini, dayaq məntəqələrini darmadağın etdi. Zabit və əsgərlərimiz müxtəlif istiqamətlərdə düşmən cəbhəsinin yarılmasında xüsusi fədakarlıq göstərdilər. İşğalçılar Azərbaycan Ordusunun bölmələrinin sarsıdıcı zərbələri qarşısında dayana bilməyərək geri çəkilməyə məcbur oldu. Əksər mövqelərdə silahlarını, sursatlarını da qoyub qaçdılar. Döyüşə-döyüşə 28 ildən bəri işğalda qalmış şəhər və kəndlərimizi azad etdik. Vətən müharibəsində qazandığımız qələbələr qəhrəmanlıq tariximizin səhifələrinə qürurla yazıldı”.

(Ardı 4-cü səhifədə)

Müdafiə naziri hərbi hospitalda müalicə alan yaralılarla görüşüb

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin tapşırığına əsasən, sentyabrın 18-də müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti Müdafiə Nazirliyinin Baş Klinik Hospitalında olublar.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, əvvəlcə ümummilli lider Heydər Əliyevin hospitalın ərazisində ucaldılan abidəsi önünə gül dəstələri qoyularaq xatirəsi ehtiramla yad edilib.

General-polkovnik Zakir Həsənov Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı təxribatlarının qarşısının alınması zamanı yaralanan və Müdafiə Nazirliyinin Baş Klinik Hospitalında müalicə olunan hərbi qulluqçularla görüşərək onların səhhəti və qayğıları ilə maraqlanıb.

Müdafiə nazirinə məruzə olunub ki, hospitalda yaralı hərbçilərimizin müalicəsi üçün bütün tibbi personal yüksək peşəkarlıqla fəaliyyət göstərir.

Sonra nazir palatalarda müalicə olunan hərbi qulluqçulara baş çəkib, onların səhhəti və reabilitasiya prosesi ilə maraqlanıb, tezliklə sağalaraq xidmət yerlərinə qayıtmalarını arzu edib.

General-polkovnik Zakir Həsənov yaralı hərbi qulluqçularımıza göstərilən xidmətin daha keyfiyyətli təşkil olunması ilə bağlı aidiyyəti üzrə müvafiq tapşırıqlar verib.

Ermənistan silahlı qüvvələrinin təxribatçıları tərəfindən basdırılan minalar aşkar olunub

Sentyabrın 12-də gecə saatlarında Ermənistan silahlı qüvvələrinin Kəlbəcər, Laçın və Daşkəsən rayonlarında genişmiqyaslı təxribatı zamanı qarşı tərəfin diversiya qruplarının sutkanın qaranlıq vaxtında ərazinin dağlıq relyefi və mövcud dərə boşluqlarından istifadə edərək müxtəlif istiqamətlərdə minaladıqları Azərbaycan Ordusunun bölmələrinin mövqeləri arasındakı ərazilər və təminat yolları mühəndis-istehkam bölmələrimiz tərəfindən təmizlənir.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, ərazidə aparılan minatəmizləmə fəaliyyəti nəticəsində 100 ədəd Ermənistanda istehsal edilmiş piyada əleyhinə PMN-Ə minası, 8 ədəd piyada əleyhinə PMN-2 minası və 10 ədəd tank əleyhinə mina aşkar edilərək zərərsizləşdirilib.

* * *

Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı təxribatı zamanı diversiya qruplarının minaladıqları ərazilər və təminat yolları Azərbaycan Ordusunun mühəndis-istehkam bölmələri tərəfindən təmizlənir.

Laçın rayonu ərazisində aparılan minatəmizləmə fəaliyyəti nəticəsində sentyabrın 18-də Böyük İşıqlı dağının şimal-şərq hissəsindəki dərə boşluğunda 122 ədəd 2021-ci ildə Ermənistanda istehsal edilmiş Ə-001 M tipli piyada əleyhinə mina çıxarılaraq daşınıb və təhlükəsizlik qaydalarına riayət olunmaqla zərərsizləşdirilib.

* * *

Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı təxribatı zamanı diversiya qruplarının minaladıqları ərazilərin və təminat yollarının mühəndis-istehkam bölmələrimiz tərəfindən təmizlənməsi prosesi davam edir.

Laçın rayonu ərazisində aparılan minatəmizləmə fəaliyyəti nəticəsində sentyabrın 19-da Böyük İşıqlı dağının şimal-şərq hissəsindəki dərə boşluğunda 2021-ci ildə Ermənistanda istehsal edilmiş növbəti 100 ədəd Ə-001 M tipli piyada əleyhinə mina aşkar edilib.

Azərbaycan Ordusunun mühəndis istehkam-bölmələri tərəfindən aşkar olunan minalar təhlükəsizlik qaydalarına riayət olunmaqla ərazidən çıxarılıb.

Ərazidə mühəndis təminatı üzrə görülən işlər davam etdirilir.

Müdafiə Nazirliyinin rəhbər heyəti şəhidlərimizin dəfn və yas mərasimlərində iştirak edib

Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənovun tapşırığına əsasən, nazirliyinin rəhbər heyəti, digər hərbi qulluqçular və mülki işçilər Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı təxribatlarının qarşısını alarkən şəhid olan hərbi qulluqçularımızın dəfn və yas mərasimlərində iştirak ediblər.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Bakı şəhəri və digər rayonlarda keçirilən mərasimlərdə əvvəlcə ölkəmizin müstəqilliyinin və ərazi bütövlüyünün təmin olunması uğrunda şəhid olan Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Şəhidlər xiyabanlarının ziyarəti zamanı şəhidlərimizin məzarları üzərlərinə gül dəstələri düzülüb və ruhlarına dualar oxunub.

Keçirilən yas mərasimlərində şəhid olan hərbi qulluqçularımızın döyüş yolu və göstərdikləri igidlikdən söhbət açılıb.

Hərb tariximizdən

Dünya şöhrətli tam artilleriya generalı

Azərbaycanın görkəmli hərb xadimi, tam artilleriya generalı Əlağa Şıxlinski tarixdə də yaşayır, xatirələrdə də, yaddaşlarda da. Ömrü ötən əsrin əvvəllərində müharibələrdə keçən, Cümhuriyyət Ordusunun yaradıcılarından sayılan, sovet dönəmində hərb elminin mahir bilicisi kimi qazandığı təcrübəni milli hərbçi kadrların hazırlanmasına həsr edən xalqımızın general oğlu Əlağa Şıxlinski 79 il öncə - 18 avqust 1943-cü ildə 83 yaşında Bakıda vəfat etmişdir.

İki ağır, dağıdıcı dünya müharibəsinin şahidi olan (Əlağa Şıxlinski Birinci Dünya müharibəsi cəbhələrində döyüşüb) görkəmli generalın şərəf dolu ömrü üç dönəmdə - çar imperiyası, Azərbaycan Xalq Cümhuriyyəti və sovet dönəmində keçdi.

...Port-Artur döyüşlərində qalanın müdafiəsi zamanı düşmən həmlələrinin dəf edilməsində Əlağa Şıxlinskinin xidmətləri böyük olub. Onun 1904-1905-ci illərdəki hərbi rəşadəti bütün Rusiyaya yayılmışdı. Qəhrəmanlığına görə altı ordenə layiq görülən, rütbəsi pillə-pillə yüksələn sərkərdə generalımız haqlı olaraq özünün "Xatirələrim" adlı dəftərində belə yazırdı: "Port-Artur epopeyasının iştirakçısı olduğumu həmişə iftixarla xatırlayıram".

Yaşadığı dövrün çətinliklərinə dərin təfəkkürü, iti ağlı və zəngin elmi istedadı ilə mərdliklə sinə gərən məşhur sərkərdə xatirələrini qələmə almaqla, əslində, həm də Azərbaycan hərb tarixini yazıb. "Xatirələrim"dəki hazırkı dövrün insanlarının gözünə təmiz, vicdanla, dik baxıram", sözləri, əslində, onun şərəfli ömür yolunun təsdiqidir, sönməz işığıdır.

Tam artilleriya generalı yazırdı: "...Ordu xalqın istinadgahıdır - bura xalqın ləyaqətli oğulları gəlməlidir".

Rusiyada 1917-ci ilin oktyabr çevrilişindən sonra Cənubi Qafqazda hərbi-siyasi vəziyyət olduqca mürəkkəb idi. Belə çətin tarixi şəraitdə general-leytenant Əlağa Şıxlinski tərkibi əsasən azərbaycanlılardan ibarət olan müsəlman korpusunun təşkilinə başladı. 1917-ci il dekabrın 11-də Zaqafqaziya Komissarlığı müsəlman hərbi birləşməsinin yaradılması haqqında dekret verdi. Onun rəhbərliyi altında korpusun tərkibinə daxil olan iki piyada diviziyasının, xüsusi süvari briqadasının, iki nişançı-topçu briqadasının zabit-komanda heyəti formalaşdırıldı, azərbaycanlı əhali arasında çağırış işinin əsası qoyuldu. Həmçinin, qoşun hissələrində döyüş hazırlığı təşkil olundu, milli kadr hazırlığı üçün ilk hərbi məktəbin yaradılmasına cəhd göstərildi. 1918-ci ilin əvvəllərinədək korpus Tiflisdə yerləşirdi. Çox keçmədi ki, korpusda xidmət edən azərbaycanlılar 1918-ci il iyunun 26-da yaradılan Əlahiddə Azərbaycan Korpusunun komandiri general Əlağa Şıxlinskinin rəhbərliyi altında yenidən birləşdirildi, müstəqil Azərbaycan Ordusunun təməli qoyuldu.

1918-ci il dekabrın 29-da Əlağa Şıxlinski Azərbaycan Xalq Cümhuriyyəti hərbi nazirinin müavini oldu. 1919-cu il yanvarın 10-da o hərbi nazirliyin Müvəqqəti Hərbi Şurasının üzvü təyin edildi və Hərbi Şuranın əsasnaməsini hazırlamaq ona tapşırıldı.

Aprel işğalından sonra qısa müddət qırmızı ordu sıralarında xidmətini davam etdirən Cümhuriyyət Ordusunun generalı 1920-ci ilin iyununda bolşevik həbsinə məruz qalsa da, görkəmli dövlət xadimi, Azərbaycan Xalq Komissarları Sovetinin sədri Nəriman Nərimanovun bolşevik rəhbəri V.İ.Leninə məktubundan sonra həbsdən azad edildi. 1921-ci ilin yayında Azərbaycana qayıtdıqdan sonra Şıxlinski Bakı qarnizonu hərbi-elmi cəmiyyətinin sədr müavini, 1925-ci ildə Azərbaycan hərbi tərcümə kollegiyasının redaktoru təyin olundu. 1929-cu ildə səhhəti ilə əlaqədar, bütün ömrünü həsr etdiyi hərb işindən ayrılaraq fərdi təqaüdə çıxdı.

Cümhuriyyət Ordusunun qurulmasında göstərdiyi xidmətlər, Bakının işğaldan azad olunması uğrunda Qafqaz İslam Ordusunun komandanı Nuru Paşa ilə birlikdə ermənibolşevik qüvvələrinə qarşı apardığı gərgin mübarizələr, həyata keçirdikləri uğurlu əməliyyatlar generalımızın şərəfli ömrünün ən parlaq səhifəsi, milli ruhunun qələbəsidir. Dünya müharibə tarixinə adı qızıl hərflərlə həkk edilən, Cümhuriyyət Ordusunun qurucularından olan Əlağa Şıxlinski hərb elmindəki kəşfləriylə doğma Vətəni Azərbaycana şan-şöhrət qazandırıb.

Azərbaycanın sərkərdə oğulları, cümhuriyyət generalları heç zaman unudulmur, həyat və döyüş yolları tarixin hər dönəmində gələcək nəsillərə təbliğ edilir. 2014-cü ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Əlağa Şıxlinskinin 150, Cəmşid Naxçıvanskinin 120, 2015-ci ildə tam artilleriya generalı Səməd bəy Mehmandarovun 160 illik yubileylərinin keçirilməsi barədə imzaladığı sərəncamlar xalqımızın, dövlətimizin hərb tarixinə, cümhuriyyət tarixinə göstərdiyi diqqətin bariz nümunəsidir.

Görkəmli generalın 150 illik yubileyi barədə Prezidentin sərəncamında qeyd olunur ki, XX əsrin əvvəllərindən etibarən irimiqyaslı hərbi əməliyyatların iştirakçısı kimi general Əlağa Şıxlinski döyüş meydanlarındakı şücaətləri və artilleriya nəzəriyyəsinə gətirdiyi yenilikləri ilə hərb tarixinə parlaq səhifələr yazmışdır. O, Azərbaycan Xalq Cümhuriyyətinin mühüm dövlət təsisatları yaradılarkən milli qoşun hissələrinin təşkilində, müstəqil ordu quruculuğunda müstəsna fəaliyyət göstərmiş, sonrakı dövrlərdə də hərbi andına sadiq qalaraq ölkənin silahlı qüvvələrinin formalaşdırılmasına töhfələr vermişdir.

Dövlət rəhbərinin imzaladığı Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi ilə bağlı sərəncamı da, 2018-ci ili "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan etməsi də bu diqqətin davamı kimi qiymətləndirilir. Qeyd edək ki, ümummilli lider Heydər Əliyevin imzaladığı 22 may 1998-ci il tarixli fərmanı ilə müasir Azərbaycan Ordusunun Cümhuriyyət Ordusunun (26 iyun 1918-ci il) varisi olduğu öz təsdiqini tapdı.

Dövlət başçısının sərəncamından irəli gələn vəzifələr orduda yüksək səviyyədə həyata keçirilir. Şəxsi heyətin ideoloji və mənəvi-psixoloji hazırlığında, ictimai-siyasi dərslərdə cümhuriyyət tarixi dərindən öyrədilir, Azərbaycan Ordusunun yaradılması, formalaşması və cümhuriyyət generalları haqqında məlumatlar diqqətə çatdırılır.

Görkəmli sərkərdələrimizin şərəfli həyat və şanlı döyüş yolunun öyrənilməsi xidmətdə olan hərbi qulluqçuların, eləcə də gələcək nəsillərin vətənpərvər ruhda böyüməsində, xalqına və dövlətinə bağlı vətəndaş kimi formalaşmasında xüsusi rol oynayır.

Lalə HÜSEYNOVA
"Azərbaycan Ordusu"

Qazaxıstan Respublikasının nümayəndə heyəti Milli Müdafiə Universitetində olub

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, ölkəmizdə səfərdə olan Qazaxıstan Respublikası Müdafiə Nazirliyinin Hərbi Təhsil və Elm Departamentinin nümayəndə heyəti Milli Müdafiə Universitetində olub.

Milli Müdafiə Universitetinin rektoru, professor, general-leytenant Heydər Piriyev qonaqları salamlayaraq onları ölkəmizdə görməkdən məmnunluğunu ifadə edib.

Daha sonra qonaqlara Milli Müdafiə Universitetinin tarixi, struktur və təhsil səviyyəsinin təşkili haqqında geniş brifinq təqdim olunub.

Görüşdə ölkələrimiz arasında hərbi təhsil sahəsində əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri, eləcə də qarşılıqlı maraq doğuran məsələlərə dair fikir mübadiləsi aparılıb.

Baş Prokurorluq: Foto və videogörüntülərlə bağlı araşdırma başlanılıb

Cari ilin sentyabrın 12-14-də Ermənistan silahlı qüvvələrinin Azərbaycan-Ermənistan dövlət sərhədinin Daşkəsən, Kəlbəcər, Laçın və Zəngilan rayonları istiqamətində törətdiyi genişmiqyaslı təxribatın və ölkəmizin ərazisinə və suverenliyinə qarşı hərbi təhlükələrin qarşısının alınması ilə əlaqədar Azərbaycan Silahlı Qüvvələri tərəfindən zəruri tədbirlər görülməklə həmin qanunsuz əməllərin qarşısı qətiyyətlə alınıb.

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, həmin ərəfədə bəzi sosial şəbəkələrdə Azərbaycan hərbi qulluqçuları tərəfindən erməni silahlı birləşmələrinin üzvlərinin meyitlərinə qarşı qanunsuz əməllərə yol verilməsi, habelə saxlanılmış təxribatçılara qarşı qeyri-insani rəftar göstərilməsinin iddia olunduğu görüntülər paylaşılmışdır.

Azərbaycan Respublikasının Hərbi Prokurorluğu tərəfindən bu kateqoriyadan olan videolar üzrə onların həqiqi olub-olmaması, habelə videolardakı görüntülərin çəkildiyi zaman və məkan, onlarda əks olunan hərbi qulluqçuların şəxsiyyəti, eləcə də obyektiv həqiqətin müəyyən edilməsi üçün əhəmiyyət kəsb edən digər bütün hallar tam və hərtərəfli araşdırılır.

Hərbi Dəniz Qüvvələrində komanda-qərargah təlimi keçirilir

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi 2022-ci ilin döyüş hazırlığı planına əsasən Hərbi Dəniz Qüvvələrində komanda-qərargah təlimi keçirilir.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, təlimin başlanması ilə əlaqədar keçirilən brifinqdə Hərbi Dəniz Qüvvələrinin komandanı kontr-admiral Sübhan Bəkirov təlimin gedişi və icra olunacaq fəaliyyətlər haqqında məruzələri dinləyib.

Bildirilib ki, təlimin keçirilməsində əsas məqsəd komandirlərin və qərargah zabitlərinin döyüşün təşkili və aparılması zamanı yaranmış müxtəlif şəraitdə çevik qərar qəbuletmə və mövcud qüvvələrin səmərəli tətbiqi üzrə praktiki vərdişlərinin təkmilləşdirilməsi, o cümlədən şəxsi heyətin bilik və bacarığının artırılmasıdır.

"Biz sabahın artilleriyaçılarıyıq!"

(Əvvəli 1-ci səhifədə)

Çox sevinirik ki, qələbənin qazanılmasında artilleriyaçıların da əvəzsiz rolu oldu. Qazanılan qələbələr gənc əsgərləri hərbi xidmətə duyğusallıqla bağlayır. Dərslər zamanı İkinci Qarabağ müharibəsində qazanılmış təcrübədən də istifadə edirik. Həmin təcrübənin məşğələlərdə tətbiq olunması, əslində, qeyri-rəsmi tədris prosesidir. Bu gün "Topun "döyüş" vəziyyətində heyət nəfərinin vəzifəsi və işi" mövzusunda əsgərlərimiz vəzifələrini peşəkarlıqla yerinə yetirdilər. Məşğələdən-məşğələyə zabit və əsgərlərimizin döyüş təcrübəsi artır. Artan döyüş təcrübəsi isə sabahkı uğurların zəmanətidir.

Bölmə komandiri daha sonra deyir:

- İkinci Qarabağ müharibəsi bir daha göstərdi ki, bilikli, təcrübəli və bacarıqlı əsgərlər qələbə qazanırlar. Ona görə şəxsi heyətin döyüş hazırlığının həmişə yüksək səviyyədə olmasına çalışırıq. Onu da bilirik ki, bilik, bacarıq və təcrübə, əsasən, təlimlərdə, məşqlərdə, dərslərdə möhkəmlənir. Buna görə də bütün tədris proseslərinə böyük önəm veririk. Bir qayda olaraq əvvəlcə dərsin mövzusunu izah edir, sonra əyani şəkildə göstəririk. Mövzunu heyət nəfərlərinə bütövlükdə deyil, mərhələlərlə izah etmək daha səmərəlidir. Bir mərhələ başa çatandan sonra artıq praktik - təcrübi məşğələ başlayır. Əsgərlərimiz daha da həvəslə iştirak edirlər. Onu da deyim ki, verilən tapşırıqların icrası zamanı əsgərlərin nəyə qadir olduqları, bilikləri və döyüş vərdişləri-

ni necə mənimsədikləri aydınlığıyla görünür.

Söhbət zamanı öyrənirik ki, baş leytenant Habil Hüseynzadə İkinci Qarabağ müharibəsində göstərdiyi igidliyə və qəhrəmanlığa görə "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Hərbi xidmətlərə görə" medallarına layiq görülüb.

- Öyrənməkdən yorulmuruq. Yaxşı bilirik ki, nə qədər bilikli və bacarıqlı olsaq, döyüşlərə o qədər hazırlıqlı olacağıq, - top komandiri, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Naseh Eyvazov söhbətimizə qoşulur. - Komandirlərimiz dərs və təlimlərin keçirilməsinə böyük məsuliyyət və diqqətlə yanaşırlar. Onlar çalışırlar ki, tabeliyində olan əsgərlər artilleriya qurğularının sirlərini dərindən öyrənsinlər, döyüş vərdişlərini mükəmməl mənimsəsinlər. Həm təlimlərdə, həm də döyüşlərdə uğurlar qazansınlar. Mən də top komandiri kimi üzərimə düşən tapşırıqların öhdəsindən bacarıqla gəlməyə çalışıram. Məşğələnin gedişində mövzuya uyğun olaraq artilleriya qurğularının taktiki-texniki xüsusiyyətlərini heyət nəfərlərinə böyük həvəslə öyrədirəm. Onlar dərslərdə mövzuların izahını maraqla dinləyirlər. Döyüş tapşırıqlarının öhdəsindən bacarıqla gəlmək üçün daim döyüş hazırlığımızı və peşəkarlığımızı artırırlar.

Əsgər Məhəmməd Hüseynov deyir ki, istər döyüşlərdə, istərsə də təlimlərdə tuşlayıcının üzərinə böyük məsuliyyət düşür. "Tuşlayıcı peşəkar olmalıdır ki, hədəfin yerini və məsafəsini dəqiq müəyyənləşdirsin, atəş ünvanına dəqiq düşsün. Buna görə də biz təlim-məşqlərdə fəal iştirak edərək hərbi bilikləri dərindən mənimsəməyə çalışırıq".

Heyət nəfərlərindən Tapdıq Həsənov, Rəvan Qəribov, Amin Abdullayev, Rövşən Şükürlü, Sadiq Rüstəmov və başqaları da dərs və məşğələlərdə fəal iştirak etdiklərindən həvəslə danışırlar. Hiss edirdik ki, əsgərlərin qətiyyəti, inamı həmişə onları məqsəd və amallarına çatdıracaq. Artilleriyaçılar yaxşı bilirlər ki, bu gün mənimsənilən biliklər sabahkı uğurların təminatçısıdır. Ona görə də təlim və məşğələlərdə daha böyük məsuliyyətlə iştirak edirlər.

Dərs prosesi davam edir.

Payız küləyi artilleriyaçıların təlimini pozmaq qüdrətində deyil. Əsgərlərin baxışlarında ciddi bir qətiyyət oxunur: "Biz həm də sabahın artilleriyaçılarıyıq!.."...

Rəşid HÜSEYNOV,
Vahid MƏHƏRRƏMOV
"Azərbaycan Ordusu"
fotolar
C.CƏFƏROVUNDUR

Yarpız dərdim Murovdan!..

Dan yeri söküləndən üzü bu yana yolçusu olduğumuz yola könlümün yolu deyirəm; könlümün yolu bizi illərdi havasına, suyuna, möcüzə gözəlliklərinə - özünün, sözünün görüşünə can atdığım Kəlbəcərə aparır. Murov yolu ilə...

Murovun bu üzündə sərin-sərin yel əsir. Əsə-əsə həlimləşən qılıqcıl yeldi...

Yaranışından ellər yolsuz, Murov yelsiz olmayıb; dünyanın düz vaxtında da belə olub, Kəlbəcər işğal olunanda da, ikinci Kəlbəcər əməliyyatında da...

Ayağım yer, dilim söz tutandan, əlim qələm tanıyandan üzü bu yana "Yolun yol olunca uğurun uğur olsun..." deyimini ömrümə Dədəlik xeyir-duası bilmişəm. Çünki uğur gözəl niyyətin uğurudursa, yol yolçusunu yormur. Kəlbəcərə gedirik - istənilən hərbi tapşırıqları xüsusi məharətlə yerinə yetirməyə qadir olan komando hərbi hissəsinə gedirik. Vətən müharibəsindən sonra ordu quruculuğu həm də bu yeni hissələrin yaranması ilə davam etdirilir; xüsusi təyinatlılara tən qoşun növü kimi Azərbaycan Ordusunun qüdrətini artıracaq...

Kəlbəcərdə zəfər sonrası quruculuq işlərini, heyrət təbiəti, ecazkarlıqları, möcüzə gerçəklikləri gözlərimizə; gözlərimizdən könlümüzə köçürəcəyik. Gözəl niyyətə aparan yol da gözəldi; bu yol dəniz səviyyəsindən 3260 metr yüksəklikdən keçsə də rahatdı, təhlükəsizdi, baxımlıdı.



Yoldan bir qədər aralıda yeni inşa edilən tunel görünür. Tikintisinə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xüsusi sərəncamı ilə Vətən müharibəsində qazanılan zəfərdən sonra başlanılıb. Tikilməkdə olan, Murovun bu üzünün mehini o üzünə, o üzünün mehini bu üzünə sərəcək bu tunel yaxın vaxtlarda Kəlbəcərlə kəsilməz əlaqə yaradacaq. Zəfərdən sonra Kəlbəcərdə, Laçında yaradılan 10-dan çox tunellərdən biri də budu.

Bu tunel Azərbaycanın müstəqilliyi dövrünün ən iri tikintisidi. Bu gözəl tuneldən nə vaxtsa keçəcəyim, sevincini yaşayacağım anların rəngini könlümün gözüylə görürəm. O gözəl sevincin rəngində zəfərin çalarlarını ayırd etmək çətin deyil. Bu həsrətin sevincinin eynini bir neçə saatdan sonra Kəlbəcərdə, tunelin o başını görəndə də yaşayacam. Hələ yol gedirik...

Yolu-izi kəsdi Murov,
Bir İlahi səsdi Murov.
O yol elə...
Bu yol belə...
Təzə yolun
altı - torpaq, üstü - Murov...

Bu yol bizi Kəlbəcərə aparır...

Bu yolda 93-ün aprelində təntələk yellər əsib. Onda bu yolun yolçularının ürəyinin dərd yükü farmaşının yükündən xeyli ağırıydı. Yüz illərlə hər nəfəsə qoşa qollar açan yollar onda hər nəfəsə nicat kimi, qurtuluş kimi əl uzadırdı. Ermənilik bu biçarələri Kəlbəcərdən Ömər aşırımınacan təqib eləmişdi. Hamısı Ömər aşırımında bir hovurluğuna nəfəs dərib Kəlbəcərə sarı boylanmışdı. Ömər aşırımından aşanların yerişində, duruşunda, baxışında dərd görən, dərdi namərd görən qəlbi daşlar qaralırdı. Gərdişi qınayanların biçimsiz qınağına yağış yağırdı, yağışlar ara verincə bunca təntiyən qınaqları Gün döyürdü.

Bu yol Müdafiə Nazirliyi Sənədli Filmlər Kino-Tele Studiyasının (indiki Azərbaycan Ordusunun Sənədli və Tədris Filmləri Mərkəzi) əməkdaşları kimi bizi - Nizami Abbası, Etibar Şirini, məni 1993-cü ilin dekabrın 26-da Zəligölə gətirmişdi (yetirmişdi yazmaq istəyirdim...). Sığınacaqda Kəlbəcərdən, Kəlbəcər döyüşlərindən, Kəlbəcərin işğalından danışmışdıq, "əzəldən səngərli-qalalı dağlar"ı bürümüş qara dumanlardan, qara dumanların "yedəyində sürünən" qara gümanlardan danışmışdıq. Baş leytenant Sahib Aslanovun "Ruhani"si sığınacağı isitmişdi, oradakıların ürəyini coşdurmuşdu. Onda Sahib qəlbimdən keçənləri duyubmuş kimi gözaltı üzümə baxmışdı, mən - əsgərlərə.

Əsgərlərin döyüş əzmini, qələbə ruhunu duyunca göy üzünə baxmışdım. Əsgərlər Kəlbəcəri işğaldan azad edəcəklərinə and içmişdilər. Bütün torpaqlarımızı işğaldan azad etməyə də and içmişdilər. İnanmışdıq ki, dünya belə qalmayacaq...

Qar altda qalan yolla Toğanadan, yol evindən keçmişdik. "Güzgü"nün yamacına çatmışdıq. Şaxta-sazaq içində adi olmayan relyefdə döyüş növbətçiliyinin dəyişdirilməsinin heyranlarıydıq - əsgərlər də, zabitlər də yüksəkliyə kəndirlə çıxırdılar. Gözlərimizi yayındırmadan baxırdıq. Nizami Abbasla Etibar Şirin bu prosesi kino-lentə köçürmüşdülər...

Bu kadrlar Azərbaycan əsgərinin döyüş əzminin, qələbə ruhunun tarixidi, müharibə tarixi kimi yaşadılacaq. Onda əsgərlərdən biri "Döyüşə oradan başlayacağıq, döyüş yolumuzun başlanğıcı ora olacaq, oradan "Güzgü" - demişdi. Əsgərlər həmin əsgərə baxmışdı, biz - komandirlərə, komandirlər - Kəlbəcərə sarı. Onda 1993-cü il dekabrın 27-si idi...

Dekabrın 31-də Kəlbəcərə hücum əmri verildi. Bu, ikinci Kəlbəcər əməliyyatı idi. Bu döyüşlərdə yüzlərlə döyüşçümüz şəhid oldu. Bu şəhidlik Abdulla Qurbaninin vətəndaşlıq yanğısıyla "Murovun qəm karvanı"na döndü. Bu karvan əbədiyyətin karvanıdı.

Onda 1993-cü iliydi, indi 2022-ci ildi...

Onda qışıydı, indi yaydı...

Onda "Güzgü"nün ətəyindəydik, indi "Güzgü"nün yaxasındayıq; 2022-ci ilin yayında 1993-cü ilin qışının ağrılarını, sızıltılarını təzədən yaşaya biləcəyikmi? Sonra qürurla 2020-ci ilin payızını - Vətən müharibəsini, on illərin o üzündə qalanları müharibəmizin tarixi kimi xatırlayacağıq - döyüşləri də, şəhidləri də...

* * *

Abdulla Qurbani maşını saxladır. Xeyli aralıda yolun yamac tərəfini göstərərək qəhərlə, "Dağbəyinin oğlu Elgün orada şəhid olub", - dedi. Həmkarımız Dağbəyi İsmayılovun oğlunun qəhrəmanlığını, şəhidliyini xatırladır. Elgünü mən də tanıyırdım. "Azərbaycan" qəzetində işləyirdi. Dostumun oğlu kimi, könlümə yatan oğul kimi "Azərbaycan" nəşriyyatında rastlaşanda kəlmələşirdik. Hər görüşəndə mənim "Müharibə nə vaxt qurtaracaq?" kitabıma görə səmimiyyətlə soruşardı ki, müharibə nə vaxt qurtaracaq. Gülümsünərdim. Bu təbəssüm ikimizə də könül xoşluğu olardı - səmimi sorğuya səmimi sözsüz cavab kimi. Bu təbəssüm içində də ciddiyyətlə soruşardı: Müharibə nə vaxt başlayacaq? Bu sorğunu heysiyyətin sorğusu bilərdim. Mənə elə gələrdi ki, bu sorğu Elgünün bütün həmyaşıdlarının sorğusudu - hərbi xidmətə marağın (və sevginin!) sorğusudu.

İkinci Kəlbəcər əməliyyatı başlayanda Elgün Dağbəyi oğlu hərbi xidmətdəydi. Horadiz əməliyyatında da iştirak etmişdi...

Kəlbəcər istiqamətində döyüşürdülər - kəşfiyyatçı idi. Mayın 25-dən 26-na keçən gecə Elgünü üç nəfərlə birlikdə Ömər yüksəkliyində düşmənin arxasına kəşfiyyata göndərmişdilər...

Duyuq düşən düşmənin atəşləri altına düşdülər. Atışa-atışa mövqelərimizə tərəf uzaqlaşırdılar. Elgün yaralanmışdı. Düşmənin atəşindən uzaqlaşmağa çalışırdı. Xarakterinə bələd olanlardan biri kimi güman edirəm ki, o anlarda düşmənin güllələrindən də betər əsirlikdən uzaqlaşmağa qərarlıydı. Gözucu avtomatının darağına baxıb. Döyüşçülərimizin nəzarətində olan əraziyə çatmağa az qalanda bir qədər aralıda köməyə çağıran döyüşçünün harayını eşidib. Bir anlığa dayanıb, sonra öz yarasının hayına qalmağı unudaraq haraylayan yaralının xilasına tələsib. Əli yaralıya çataçatda qanaxmadan keçinib igid döyüşçü - Elgün İsmayılov...

Elgünün də, xilasına can atdığı döyüşçünün də şəhid olduğu yamaca sarı baxıram. Azərbaycan jurnalistikasının gözləriylə baxıram. Ruhən Dağbəyinin bircə kəlməsini eşidirəm: "Offf...". 20 yaşlı oğul itirən atanın ağrılarının sızıltısını ürəyimdə hiss edirəm...

Elgünün son nəfəsinin sərildiyi daş şəhid ömrünə - şəhid ruhuna nə qədər sədaqətliymiş!..

İkinci Kəlbəcər əməliyyatında Murovun bu üzündə - Ömər aşırımının yamaclarında döyüş şəraitində qəlbi daşların arxasında şəhid olanların, şəhid olanda qar qalağına düşənlərin, son nəfəsi qara qarışanların neçəsinin təni tapılmalıydı. Kəfəni qar olanlar əbədiyyətə uğurlanmalıydı. Bu ağır işi mənəvi borc kimi yerinə yetirən öncüllərdən biri Abdulla Qurbani olmuşdu. Abdulla Qurbani onda həmin hərbi hissədə xidmət edirdi, əraziyə yaxşı bələd idi. Döyüşənlərin əksəriyyətini tanıyırdı. İtkin şəhidlərin tapılmasının, əlamətlərinə görə kimliyinin müəyyənləşdirilməsinin, dəfninin təşkilinin cəfakeşi olub Abdulla Qurbani. Onlarla şəhid tapılıb, çoxusunun kimliyi müəyyənləşdirilib, neçəsi naməlum əsgər kimi Vətən adından dəfn edilib...

Son nəfəsində biri-birinə sığınan iki şəhid - biri əsgər, biri zabit. Zabitin kimliyi müəyyənləşdirilmişdi, əsgərin kimliyini müəyyənləşdirmək mümkün olmamışdı. Onları bir-birindən ayırmağa heç kimin əli gəlməmişdi - müqəddəs niyyətlə döyüşmüşdülər, müqəddəs niyyət üçün şəhid olmuşdular, belə şəhid olmuşdular, son nəfəsləri bir-birinə sarılmışdı. Belə dəfn etdilər bu şəhidləri. Min illik döyüş - qələbə ruhumuz, Vətənə bağlı ruhumuz deyir ki, belə şəhidləri belə dəfn günah deyil, heç günah deyil...

Murovun sinəsində iri daşların nizamsızlığında qəribə bir nizam görünür. Zamanında bəşəriliyin döyüşçülərini (Azərbaycan əsgərini) bəşəriliyin yağılarından (ermənilikdən) qoruduğu üçün bu nizama bəşəri nizam deyirəm. Uzaqlardan bu daşlar xırda göründüyünə görə bu nizamı ayırd eləmək mümkün olmurmuş. Gözdoyduran bu daşlar yatırıxmış qaya misallı iri daşlardı. Zamanında hamısına döyüşçü nəfəsi dəyib; daşların duruşunda bənzərsiz əzəmət görməmək günahdı. Bəlli olmayan illərdi əsən yellər, daşan sellər, vədəlivədəsiz yağan qar-yağış onları yerindən tərpədə bilməyib; bu daşlar torpağa düşməyib, torpağın təkindən çıxıb, ağac kimi cücərib, ağac kimi boy atıb, ağac kimi böyüyüb. Bu daşlar 94-ün iki qışında Azərbaycan əsgərinə səngər olub. İllər sinəsinin yaralarını da qaysaqlandırıb, yan-yörəsinə sancılan güllələrin izini də itirib. Aradan illər keçəndən sonra Kəlbəcərə gedəndə burada dayanan, ötənlərin ağrı-acısını təzədən yaşayan şair-publisist, Müdafiə Nazirliyinin rəsmisi Abdulla Qurbani Murovun sinəsində görünən qəlbi daşların ən qəlbisinə naməlum şəhidlərə qoyulacaq abidənin pyedestalı kimi baxır. Bu baxış bütün vətənsevərlərin baxışlarını ümumiləşdirir. O daş ucalığa, müqəddəs niyyətlilərin adına ucaldılmalı abidənin təbii pyedestalı ola bilər. Onda həmin

daşın yan-yörəsinə izlər düşəcək...

Naməlum şəhidlərimizin - naməlum qəhrəmanlarımızın ruhuna deyirəm ki,

Sizdən almalıyıq tarix dərsini,
O illər tarixdi, tarixə dönüb.
O vaxtdan bu yana Ulduz da, Ay da,
Başına dolanıb, başına dönüb.

Naməlum olmayıb qəhrəmanlığın,
Nələr etdiyiniz bəllidir bizə.
Tarix gizlətsə də ad-soyadını,
Naməlum qəhrəman deyirik sizə.

- Naməlum dediyiniz şəhidləri mənə verin, hamısını oğul əvəzi dəfn edərəm. Elə bilərəm bir oğlumun əvəzinə beş oğlum, on oğlum varmış. Son nəfəsiməcən əlim onların daş əllərindən, üzüm baş daşlarından üzülməz. Bu da mənə təsəlli olar, - şəhid oğlunun tənini tapa bilməyən ata belə deyirdi; gözləri yollardan yığılmayan, son nəfəsini oğlunun təninə döşənəcəyi anlara girov bilən ata naməlum şəhidlərin hamısını oğlu bilirdi...

Keçilmir deyə Murovun sinəsində cığırlar görünmür - seçilmir. "Görünməyən, seçilməyən cığırlardan keçənlərim, hardasınız?" - səsim çatıb, ünüm yetən döyüşənlər, şəhərlərdən, kəndlərdən hay verəcək, uca ruhlar - göy üzünün göylüyündən.

Vətən müharibəsində döyüşənlərimiz "Haradasınız?" - demədi, xalq ordusunun yanındaydı. Vətən Müharibəsi Qəhrəmanı Ramazan Hudulov Daşaltıda demişdi ki, döyüşlərdə şəhidlərin ruhu da sıramızdaydı. Murovun sinəsində görünməyən - seçilməyən cığırlara bu duyğusal xatırlamanın işığından baxıram. Mənə elə gəlir ki, cığırlar görünməzlikdən - seçilməzlikdən sıyrılır...

Yamacda bir bulaq çağlayır. Yan-yörəsində boy atan lilparların düzülüşünün gözəlliyini gözlərimə köçürürəm. Bir azdan biləcəm ki, sözün bulağıdı bu bulaq, şeirin bulağıdı. İllərlə, adsız yaşayıb. 1994-cü ildə ad alıb - adlandırılıb; Abdulla Qurbani poeziyamızın Məmməd Arazını Murovdağa gətirib, şair beş gün əsgər həyatı yaşayıb. Onda ustadımız bu bulağın suyundan ovuclayıb içib və şükranlıqla göy üzünə baxıb. O şeirlər Azərbaycan əsgərinin döyüş əzminin şeiriydi, qələbə ruhunun şeiriydi. Onda deyirdik ki, şeirimizin Məmməd Arazı gəldi, Murov, gördü, Murov, nə gördüsə, şeirinə hördü, Murov!

Murovun taleyinə Gün doğub onda - yamac aşağı qıvrıla-qıvrıla, dağa-daşa, coşa-coşa böyük dünyaya axan bu bulağa Abdulla Qurbaninin təklifiylə Məmməd Araz bulağı deyilib. Eşidənlər "Adın mübarək, şeiriyyət bulağı! Adını şeirsevərlər verdi, ömrünü Tanrı versin!" - deyib.

İllərdi Murovdağda yaşanılmış ovqatın ifadəsi olan misralar o illərin əsgərlərinin yaddaşındadı:

Sirr sözünü əsən yellər eşitdi,
Yamac boyu axan sellər eşitdi,
Murovdağdan Kəlbəcərə can atan
Ağır yeriş, ağır ellər eşitdi...

Ömər aşırımının yamacında bir bulaq çağlayır - Məmməd Araz bulağı!..

(Ardı 6-cı səhifədə)

Yarpız dərdim Murovdan!..

(Əvvəli 5-ci səhifədə)

Geniş məcralı Kürəkçayın kürəyini söykədiyi yamac Xətainin yürüşlərində qızılbaşların çadırlandıqları yal-yamacdı elə bil. O vaxtlar yürüşqabağı çayın gur sularının daşlara çırpılması, daşları tərpətməsi qızılbaşların döyüş ruhuna qarışarmış. Bəs indi nəyin coşqusudu? - Baxana, görənə elə gəlir ki, indicə məcrası çaya darlıq edəcək. Qəzəbdisə, nəyin qəzəbidi, sevincdisə, nəyin sevincidi? Qəzəbin də ünvanı bəllidi, sevincin də. Çılğınlıq biçimli bu sevinci Zəfərin zərrəsi bilirəm - Zəfərdən sonra bu sulara bu mehri-ülfəti yaşadanların nəfəsi dəyib...

Rəvayətə görə, bu yerlərdə bir-birinin qan düşməni olan iki qəbilə yaşayırmış. Qəbilə başçılarının zürryətləri - Ömərlə Bənövşə bir-birini sevirmiş. Onlar gözdən yayınıb sonralar Bənövşəçay, Ömərçay adlandırılacaq çayların birləşdiyi yerdə görüşərmişlər. Güdükçülər bu dəli sevdanı qəbilə başçılarına çatdırıblarmış. Ömərə də, Bənövşəyə də qəbilədən çıxmaq qadağan edilir.

Sevdalılar araçıların yardımıyla vədələşib görüşürlər. Qadağalardan sıyrılan son görüş olur bu görüş. Dan yeri sökülər-sökülməz atalarına, qan düşmənçiliyinə, qəbilə qanunlarına etiraz kimi özlərini kürək-kürəyə bağlayıb çayların qovuşağına atılıblar. Kürəkçay adı belə yaranıb...

Görəsən, 28 il bu yerlərdə Günəş beləmi çıxırmış? Qışda donan dağ çayları yayda beləmi əriyirmiş, yamac boyunca sular beləmi axırmış - daşlara dəyə-dəyə, daşları döyə-döyə, daşların sərt inadını əyə-əyə. Yaz gəlincə lilparlar beləmi boy göstərirmiş? - illərlə bu lilparlara insan nəfəsi dəyməyib...

Dağlıq massivlərin yamaclarında irilixırdalı izlər görmüşük, izin izə necə qarışdığını, izin izlə necə qoşalaşdığını görmüşük. İndi Murovun yamaclarında illər çəkən işğalın nəticəsi kimi iz yoxdu.

Uzaqlarda qoyun sürüsü görünür. Haradasa, yaxınlıqda su hövzəsi olduğuna, binəçilərin su hövzəsinə yaxın yerdə binələndiyinə, arxac saldığına şübhəmiz yoxdu. Murovun bu üzündə ellər binələnir. Bu da qayıdışdı - Böyük qayıdışın başlanğıcı. Saflıq da, duruluq da Murovdadı, el-obanın güzəranı da, qüruru da, ötənlərin tarixi də. Səfər yoldaşım Abdulla Qurbani bu tarixin həmin dönəminə yaxşı bələddi. "Ana, Murovdan gəlirəm" demişdi onda, əbədiyaşarlara elegiya olan "Murovun qəm karvanı" biçimində tarixləşmişdi...

Ömər aşırımına çatmaqdayıq. Ürəyimdə qəribə, başaçılmaz bir titrəyiş duyuram. Nədəndi - bilmirəm...

* * *

Murovun o üzündə yellər ayrı biçim əsir. Elə bil yolumuzu daramaq, yolumuzun toz-tomurunu təmizləmək üçün əsir. Murovun o üzündə təbiətin yolçuları belə uğurlaması necə duyğusal olurmuş...

Gözlərimizi dolama yolların sağındasolunda gördüklərimizdən çəkə bilmirik; gözəlliyi, ecazkarlığı, bəlkə də ilahiliyi gözlərimizə köçürməyə macal tapmamış başqa gözəllik görürük. Bu yerlərdə bir gözəllik başqa bir gözəlliyin nəhayətidi, bir gözəllik başqa bir gözəlliyin başlanğıcıdı. Tanrı gözəlliyi Kəlbəcərdə kəm eləməyib. Tək daşlar, qoşa daşlar, topa daşlar yolların haqsız-muzdsuz keşikçiləridi.

Daşlıqlar bitincə qayalıqlar silsiləsi başlayır. Qayalıqların başlanğıcını görürsən, sonu yoxdu elə bil. Ecazkarlıq o qədər gözəldi ki, bilmirsən yolun bunca uzanmasına təəssüflənəsən, yoxsa sona çatmağa tələsəsən.

Hərdən gördüyüm mağaralar (Faxralıda buna zağa da deyirlər) bizə Azıxı, Qobustanı xatırladır. Bilmirəm, bunlar insan məskəni olubmu, olmayıbmı. Qaçaqlara sığınacaq olduqlarına, onları yağışdan-qardan, istidən-bürküdən, sovet rejiminin çor güllələrindən qoruduğuna zərrəcə şübhəmiz yoxdu.

* * *

İstisuya aparan yolun solunda dağların heyrət düzümü bitincə ruhumun harayına boylanıram. Daş kitabə! Gerçək Daş Kitabə! Yolun solunda, çayın sahilində eni təxminən 1,5-1,7 santimetr, hündürlüyü 20-25 metr olan hamar bir daş görürük. Tanrı tişəsiylə hamarlanıb elə bil. Mənə elə gəlir ki, daşın cizgilərində Dədə Qorqudun nişanələri var: ağ saçlar, qara gözlər, çatılı qaşlar, ... Suçlayan olmasa, deyərdim ki, Orxon-Yenisey abidələriylə bu daş kitabə arasında ruhi-tarixi bağlılıq var. Ürəyinin gözüylə oxuyanlar min illərin o üzündə qalanları oxuyar bu tarix kitabında, tarixin kitabında.

Özümdə-sözümdə deyiləm. Tisək içində, çisək içində görün nəyə sevinirəm? - nə yaxşı, nə yaxşı bu daş kitabə ermənilərin diqqətini çəkməyib. Yoxsa bunu da tarixi abidə kimi məhv edərdilər.

Daş kitabəyə əlim yetməsə də sözüm yetir:

A mənim daş kitabım,
Sirr sözünü aç, kitabım.
Sən tarixi yaşadırsan,
Tarixə qardaş kitabım...

Zülfüqarlı kəndini çıxa-çıxda üz-üzə, göz-gözə dayanıb göylərə baş çəkən boylu-buxunlu iki yüksəklik görünür. İkisinin də sinəsində iri gövdəli ağaclar bitib - meşə örtüklü yüksəklik-lərdi. Kəndin günbatar səmtindəki yüksəklikdə bayrağımızın dalğalanması mənim də könlümü telləndirir...

Yayın orta ayında bu nə ayamdı, görəsən? Göz açıb-yumunca buludlar qaralır, çaxnaşır, göy guruldayır, şıdırğı yağış yağır. İllərlə yaxın-uzaq ellərdə seyrək yağışlara qoşa ovuc açıldığını görmüşəm, niyyətlər tutulduğunu görmüşəm, yağış kəsincə Gün çıxdığını, Günün çıxmasıyla torpağın quruduğunun bir olduğunu görmüşəm. Belə yağışlara naxış yağışı deyilərdi.

Görəsən, 1993-cü ilin aprelindən sonra buralarda necə yağışlar yağırmış? - Günnü yağışlarmı, selləmə yağışlarmı...

* * *

Nadirxanlı kəndinin başlanğıcında neçə illərdi görmədiklərimi gördüm: el-obanın barı-bərəkəti yaylağa köçürdü. Binələr örüş-örüş genişlənəcək. Sürülər arxacdan örüşlərə təzə cığırlar salacaq. Zamanında, qışda bu cığırlar da qar altında qalacaq, yazın son ayından sonra qarlar əriyəcək, cığırlar təzə görkəmdə üzə çıxacaq, binəçilərinin yollarına boylanacaq...

Yol boyunca qoyun sürüləri ötüb-keçir. Binələrin görkəmində də, çobanların yerişində də Zəfər nişanələri görürəm.

Bu düşüncələr içində qoyun sürüsü ilə qarşılaşırıq. Dayanıb sürünü aparanla salamlaşırıq. Şirin salam, şirin əleyk yadda qalacaq bir söhbətə başlanğıc olur. Ramiz Əsədov Kəlbəcərin Zəylik kəndindəndi. İkinci Kəlbəcər əməliyyatında əsgər kimi Murovdağ istiqamətində hərbi xidmətdə olub. Ramiz Abdulla Qurbanini tanıyır, ona "Komandir" deyə müraciət edir. Abdulla gülümsünür, əli ahəstəcə Ramizin çiyninə enir; Abdullaya əsgərlərin hamısı belə müraciət edirmiş. Nələri xatırladılar? - Toğananı, döyüşləri, döyüşənləri, şəhidləri, şəhid itkinləri, itkinlərin necə tapılmasını, onların qar qalağı altından necə çıxarılmasını, dəfnlərini, ...

Yolun solunda gördüyüm qayadan heyrətlənirəm. Borçalının Qoçulu kəndində bir qaya var, Haça qaya adıyla tanınır. Ondan da uca belə bir qaya Naxçıvanda var. Biri də Kəlbəcərdəymiş. Gördüm - heyrətləndim, heyrətləndim - sevdim, sevdim - sevdirəcəm. Elə bil bir qayanın zirvəsini ildırım ikiyə bölüb. Elə bil iki qaya çataqlı bitib. Biri digərindən bir azca bəstədi. Kəlbəcərin Haça qayasının (bilmirəm, onu burada necə adlandırırlar, mən sevgilərlə Haça qaya deyirəm...) sinəsi meşəlikdi. Bu qayanı digər iki Haça qayadan fərqləndirən də elə budu.

Ürəyinin gözü ilə baxanlar Vətəndə bütün gözəllikləri görür, ayrılıqda gördüklərinin oxşarlıqlarını ayırd edə bilir, nə vaxtsa, haradasa gördüyü gözəlliyin nişanələrini duyunca bu uğuruna görə şükranlıq yaşayır...

Hər daşı, hər qayası bir tarixidi Azərbaycanın. Vətənin o başı, bu başı olmur. Vətənin o başının tarixində bu başının izi var, bu başının tarixində o başının...

Qamışlı kəndində yaradılan enerji strukturu, yenidən qurulan "Kəlbəcər-1" su-elektrik stansiyasının aqreqatı, generatoru, idarəetmə panelləri, transformatoru yenilənir. Baxırsan, ürəyin dağa dönür - yollar yolçusuna hansı səviyyədə könül xoşluğu verirsə, yaradılanlar, qurulanlar da ruhu o səviyyədə oxşayır. Bu oxşama əminlikdi, inamdı. Kəlbəcərdə quruculuq işlərinin tezliklə başa çatdırılacağının zəmanətidi...

Kəlbəcərdə İstisu mineral su mənbəyində ittifaq miqyaslı sanatoriya vardı. Dərdlərin məlhəmi olan İstisunun suyu minlərlə şəfa verərdi. Bu da Azərbaycanın adına şöhrətiydi.

İşğal dövründə bu gözəlliyi, bu təbii sərvəti ermənilərə vasitə edənlər 10 noyabr üçtərəfli Bəyannamədən sonra sanatoriyanı da dağıdıb. İstisuyun mənbəyini də - gözəgötürməzlik kimi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə İstisuda da bərpa işləri davam edir. İstisu da yenidən istehsala qaytarılacaq, yenə Azərbaycana adıyla, insanlara verdiyi şəfayla şöhrət gətirəcək.

İstisuda suyu ovuclayıb içən ağsaqqalın göz yaşları suya qarışırdı. Illərin həsrətindən qurtuluş kövrəltmişdi onu. Bəlkə də Kəlbəcərə - ata yurduna ayaq basanda dizin-dizin sürünəcəyinə, sonra dərdini, qəhərini İstisuda suya çəkəcəyinə and içibmiş?!.. Baxışdıq. Nə o dindi, nə də mən. Baxışlarımız danışır: "Gözünüz aydın!", "Aydınlıq içində ol..."...

Sücaətin bir şeirini xatırlatdım:

Bir gün gülə-gülə qayıdacaqdır,
Ağlaya-ağlaya köçən Kəlbəcər.

Gözləri dolur ağsaqqalın:

- Bu günə rəhmətlik Sücaət də inanırdı, - deyir. - Onun ruhu Kəlbəcərə ilk gələnlərlə yan-yanaşı gəlib. Gəlib və geri qayıtmayıb.

- Kəlbəcərlilər Kəlbəcərə qayıdır, eloğlu. Bu qayıdış ruhun cana qayıdışıdı. Illərin ayrılığından sonra bu qayıdış tarixə görk qayıdışdı, - deyirəm. Gülümsünür. Qəhər də var bu ürkəcək təbəssümdə. Son nəfəsi Kəlbəcərə qismət olmayanlara görədi bu qəhər...

Möcüzələr deyil, gözəlliklər sərgisidi Kəlbəcər. Dağların, qayaların, daşların sinəsi Tanrı tişəsiylə işlənib sanki. Dağların-daşların sinəsində min illik tarixi olan incəsənətimizin, xalılarda yaşadılan ornamentlərin eynini görürəm. Faxralıda anam bu ornamentlərə "çeşni" deyərdi. Bu ifadəni "çeşid" kimi anlayardım; Faxralıda toxunmuş xalıların çeşnilərinin bənzərini görürəm Kəlbəcər dağlarının yaxasında. Bu ruhun eyniliyidi. Xoyda da, Mərənddə də, Dərbənddə də, ... belədi. Bu ruhun əli çatan yerlərin hamısı təkcə gözəlliyiylə deyil, həm də gözəlliyin möcüzəsiylə gözəldi. Kəlbəcər kimi...

Kəlbəcərdə uçaraqda bircə quş da görmədim; Kəlbəcər yaranışından yuxudan dan yeri söküləndə quşların tərənəsinə oyanardı. Səs səsə, həvəs həvəsə, nəfəs nəfəsə söykənərdi. Bəs indi?

Könül mülkümü Qubadlının Mahmudlu kəndində künd eləmiş görüntünün eynini Kəlbəcərdə də görürəm. Ermənilər Birinci Qarabağ müharibəsində bir evin damını, qapı-pəncərəsini söküb aparıb. Beş-altı addım sağdakı-soldakı evlər də bu görkəmdədi. Evlərdən birinin içindən ağac bitib. Yağmalanmış evin divarları arasında ağac necə cücərib, necə bitib, necə qol-budaq atıb? Bu görüntü tarixin dünyaya kinayəsidi: bu evin görkəminə görə. Ermənilik bu görkəmin içindən dikələn, boy atan ağaca görə də bəşəri qanunlarla qınanmalıdı...

Yaşadılmalı kəlamdı:

- Dünyanın gözünə kül üfürənlər kimlərdi?

- Haqqı qoyub nahaqqın tərəfini saxlayanlar...

Murovun yamaclarının qırışlarıyla Qamışlıya axan tarixi bəlli olmayan sular bir məcrada birləşib, çaya dönüb. Bayaqdan bəri əl - çənədə, dirsək - dizdə suların axışının aludəsiyəm, dəli-dolu dalğaların səsini, səs biçimli sözünü dinləyirəm.

Kəlbəcərin dünyaya dedikləri kimi dinlənilir:

93-ün aprelində də, 94-ün yanvarında da ermənilər qələbə qazanmadı, biz məğlub olduq. 93-də döyüşənlərimizin oğulları işğalı 2020-nin payızında sonlandırdılar. Döyüşənlərimizə daşın-torpağın, axar bulağın, aranın-dağın, göyün heyrətini içən yaylağın, elsiz yolların, yolsuz ellərin adından "Surunuz yerisin!" - deyirəm. "Murovun bu üzü də əski çağlarına dönür..."...

Yüngül tisək var. Yağışa düzməyəcəyi duyulandı. Bu tisəyin içindən keçib Bayraq meydanına çatmışıq. Baxdıqca baxırsan. Başqa bayraq meydanlarından ətrafı fərqlidi; sağda-solda ermənilin uçurub-dağıtdığı evlər görünür. Bayraq Meydanında Dövlət bayrağımızın duyğusallıqla dalğalanması könlümüzü telləndirir. Baxırsan. Görürsən. Dərk edirsən, düşüncələrindən bir əminlik boy göstərir: Bu Bayrağın işığında Kəlbəcər yenidən qurulacaq! Kəlbəcərlilər Kəlbəcərə qayıdacaq!

Dönüşümüzdə yarpız dərdim Murovdan...

Neçə on illərdi belə könül xoşluğu yaşamamışdım. Bu yarpız tasalanan ruhuma yurd ətri oldu. İşğaldan qurtulmuş Vətən torpağında dərildiyi üçün, getmək istədiyim, gedə bilmədiyim ucalıqdan dərildiyi üçün. Dədə xeyir-duasıyla dərildiyi üçün. Dədə Ələsgərin, Dədə Şəmşirin, Sücaətin, Bəhmənin, Məmmədin, ... ruhunun razılığıyla dərildiyi üçün...

Murovdan dərdiyim yarpız mənə Bamsı Beyrəyin son nəfəsini təslim edəcəyi yovşanı xatırlatdı; bu yovşan Qıpçaq Məliyin zindanında da oğuzluğa, el-obaya, sevdaya sədaqət kimi qorunmuşdu...

Bu yay fəslini könlümün fəsli bilirəm; yarpız dərdim Murovdan.

2020-nin
bir payız səhərində
döyüşən ruhumuza
Azərbaycan əsgərinin
qüdrətiylə biçilən
Zəfər köynəyi bilib,
Şəhidlərin ruhuna
İrəm çiçəyi bilib
yarpız dərdim Murovdan!

Qorqud Dədə, bu səhər
Qələbə bayrağıtək,
İşğala göz dağıtək
yarpız dərdim Murovdan,
yarpız dərdim Murovdan!..

Rəşid HÜSEYNOV
"Azərbaycan Ordusu"

Şəhid ömrü əbədiyyət ömrüdü

Orxan Elşad oğlu Əlili 2000-ci ildə Şəmkir rayonunun Qapanlı kəndində anadan olmuşdu. O da digərləri kimi müəllimlərindən, ata-anasından Vətənin müqəddəsliyini ifadə edən öyüdlər, nəsihətlər, tövsiyələr eşitmişdi. Bu söhbətlər onun dünyaduyumunu formalaşdırmış, düşüncələrini Vətənə, torpağa, dövlətə, dövlətçiliyə daha sıx bağlamış, digərləri kimi onu da mətinləşdirmişdi. Sovet İttifaqı Qəhrəmanı İsrafil Məmmədov adına orta məktəbi belə bir mənəvi dünyanın işığında bitirmişdi. Bir dəfə tay-tuşlarıyla söhbət zamanı demişdi ki, qəhrəmanın adını daşıyan məktəbdə təhsil alanın xarakteri qəhrəmanlıqlardan barınmalıdır. Biz də qəhrəmanlığı onların döyüş yolundan öyrənirik...

Belə böyümüşdülər, orta məktəbi bu ruhda bitirmişdilər, hərbi xidmətə bu düşüncələrlə getmişdilər...

Hərbi xidmətdə də əsgər yoldaşlarıyla söhbətləri Vətəndən, torpaqdan, torpaqlarımızın işğaldan qurtuluşu uğrunda başlayacaq döyüşlərdən olardı. Onlar da işğalın sonlandırılması üçün Ali Baş Komandanın verəcəyi hücum əmrini gözləyirdilər.

Orxan ədəbiyyatı da sevirdi, şeiri, poeziyanı da. Söhbətlərin birində əsgər yoldaşlarına demişdi: "Vaxtında gəlmişik bu dünyaya biz..." fikrini "Biz də döyüşəcəyik, biz də qaliblərin sırasında olacağıq" - kəlmələriylə tamamlamışdı...

İkinci Qarabağ müharibəsi başladı. Əsgər Orxan Əlilinin də xidmət etdiyi hərbi hissə döyüşlərə cəlb olundu...

Döyüşürdülər...

Komandir Orxana və daha üç döyüşçüyə düşmənin atəş mənbəyini susdurmağı tapşırmışdı. Atəş mövqeyinə çatar-çatmaz düşmən onları atəşə tutdu. Həm atışdan yayınmalı idilər, həm də əmri yerinə yetirməliydilər. Çətinliklə də olsa atəş mövqeyinə çata bildilər. Düşmənin intensiv atəşini bölüşdürməyi qərara aldılar - atışı iki istiqamətdən apardılar. Bu, düşmənin müqavimətini xeyli zəiflətdi...

Əmri yerinə yetirdilər...

Əsgər Orxan Əlili neçə belə döyüşün iştirakçısı oldu...

Şuşa uğrunda gedən döyüşlərdə o da iştirak edirdi. O da qaliblər sırasında Şuşaya daxil olmağı arzulayırdı; o da qalib əsgər olaraq Şuşaya bayraq sancmaq niyyətiylə döyüşürdü...

...Şuşada şəhid oldu əsgər Orxan Əlili...

Şəmkirin Qapanlı kəndində şəhid Orxan Əlilinin xatirəsinə xatirə bulağı yaradıldı. Bu bulaq bir ömrün ömürlərdə davamı kimi axacaq, onu ziyarət edənlərə bir mətləbi xatırladacaq: Şəhid ömrü əbədiyyət ömrüdü...

Şəhid əsgər Orxan Əlili Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Vətən uğrunda", "Cəsur döyüşçü", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildi.

Xatirə bulağının açılışında Şəmkir rayon İcra Hakimiyyətinin başçısı Rəşad Tağıyev, şəhidin atası Elşad Əlili, döyüş yoldaşları və məktəblilər iştirak ediblər...

...Şəhidlik ruhumuzun cığırdaşıdı, şəhidlər unudulmur deyiblər...

Mübariz MUSAYEV
"Azərbaycan Ordusu"

"Sən azadsan, Şuşa" adlı tədbir keçirildi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə 2022-ci il "Şuşa ili" elan olunub. Dövlət başçısının Sərəncamına uyğun olaraq bütün müəssisə və təşkilatlarda bu mövzuda müvafiq tədbirlər keçirilir. Tədbirlərdə iştirakçılara mədəniyyət paytaxtımız olan Şuşanın yaranmasından, tikilməsindən, qədim tarixindən, onun dünəninden, bu günündən və sabahından, gələcək inkişafından məlumatlar verilir.

Bu günlərdə Sabunçu rayonunun Balaxanı qəsəbəsində tanınmış ziyalıların, məktəblilərin iştirakı ilə "Sən azadsan, Şuşa" adlı tədbir keçirildi. Ümummilli lider Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad olundu. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Tədbirin təşkilatçısı və aparıcısı Səidə Məmmədova "Şuşa ili" ilə bağlı mərasim iştirakçılarına məlumat verərək dedi:

- 2022-ci il dövlət başçısının Sərəncamı ilə "Şuşa ili" elan olunub. 30 ilə yaxın idi doğma Şuşamız erməni qəsbkarlarının tapdağı altındaydı. Düşmən işğal etdiyi qədim şəhərimizdə tarixi abidələrimizi dağıdır, bəzilərini isə ermənileşdirirdilər. Xalqımız Şuşanın, həmçinin illərdən bəri işğalda qalmış başqa rayonlarımızın azad olunacağı günü həsrətlə gözləyirdi. 27 sentyabr 2020-ci ildə erməni təxribatına cavab olaraq əks-hücum əməliyyatı ilə İkinci Qarabağ müharibəsi başlandı. Azərbaycan Ordusunun cəsur zabit və əsgərləri torpaqlarımızı erməni işğalçılarından azad etdilər. Vətən müharibəsində bütün nəsillərə nümunə olacaq qəhrəmanlıqlar göstərdilər. 8 noyabr 2020-ci ildə güclü, qüdrətli ordumuz Müzəffər Ali Baş Komandan İlham Əliyevin sərkərdəliyi ilə Qarabağın tacı, qədim Şuşa şəhəri erməni işğalçılarından azad olundu. Həmin gün Ali Baş Komandan bu xoş xəbəri xalqa Şəhidlər xiyabanından çatdırdı. Ölkəmizin başçısı xaqla müraciətində böyük qürur və fəxrlə: "Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik!" - dedi.

Uşaqlar üçün maraqlı şeirlər və təmsillər yazan şairlər - Zahid Xəlil, Qəşəm İsabəyli və tanınmış qiraət ustası, əməkdar artist Ağalar Bayramov Şuşa ilə bağlı xatirələrini bölüşdülər. Həmçinin Şuşaya, cəsur zabit və əsgərlərimizə həsr etdikləri şeirlərini oxudular.

Balaxanı qəsəbə nümayəndəliyinin aparıcı mütəxəssisi Arazxanım Mərdanova, 69 nömrəli orta məktəbin təlim-tərbiyə işləri üzrə direktor müavini Raziyə Məmmədova, 259 nömrəli orta məktəbin təlim-tərbiyə işləri üzrə direktor müavini Günay Eyvazova, 69 nömrəli orta məktəbin ibtidai sinif müəllimi Samirə Kərimova, qəsəbə ağsaqqallar şurasının sədri Hacı Həsən Vəliyev, 4 nömrəli orta məktəbin müəllimi Aytən Qurbanəliyeva və başqaları Şuşa ilə bağlı fikirlərini mərasim iştirakçıları ilə bölüşdülər.

Əyinlərinə geyindikləri köynəyin önünə "Xarı bülbül" şəkli çəkilmiş, köynəyin arxasına isə "Sən azadsan, Şuşa" yazılmış məktəblilər iştirakçıların böyük marağına səbəb olan "Şuşa ili" ilə bağlı səhnəcik nümayiş etdirdilər.

"Şuşa ili"nə həsr olunmuş mərasimdə məktəblilər qəhrəmanlığı, vətənpərvərliyi tərənnüm edən şeirlər söylədilər.

"Sən azadsan, Şuşa" adlı mərasim alqış sədaları ilə başa çatdı. Sonra iştirakçılar Balaxanı qəsəbəsindəki tarixi abidələri ziyarət etdilər.

Vahid MƏHƏRRƏMOV
"Azərbaycan Ordusu"

Xəbərlər: hadisələr, faktlar

Türkiyənin ən böyük hərbi gəmisi ictimaiyyətə təqdim edilib

Türkiyə tarixinin müdafiə sənayesi üzrə ən böyük layihəsi olan "Çoxməqsədli amfibiya hücum gəmisi (LHD)" çərçivəsində inşa edilən "TCG Anadolu" ictimaiyyətə təqdim edilib.

İnşası davam edən konfiqurasiya oluna bilən çoxməqsədli amfibiya hücum gəmisinin bu ilin sonunda Türkiyənin Hərbi Dəniz Qüvvələrinə təhvil verilməsi planlaşdırılır.

Tam yüklənmə qabiliyyəti 27 min 436 ton olan dəniz vasitəsinin uzunluğu 231, eni isə 32 metrdir. "TCG Anadolu" Egey, Qara və Aralıq dənizlərinin əməliyyat bölgələri, lazım gəldiyi təqdirdə Hind və Atlantik okeanlarında da istifadə ediləcək.

Təqdimetmə mərasimində çıxış edən Türkiyənin müdafiə sənayesinin rəhbəri professor İsmail Demir bildirib ki, gəmidəki silah, radar və elektron döyüş sistemləri, eləcə də avionik sistemlər yerli və milli sənaye istehsalıdır.

Qeyd edilib ki, gəmi zəruri hallarda təbii fəlakətlərə yardım missiyaları çərçivəsində, eləcə də tam təchiz olunmuş xəstəxana və əməliyyat otağı imkanları ilə tibbi dəstək üçün də istifadə edilə bilər. 2019-cu ilin may ayında suya endirilən gəmidə 2022-ci ilin iyun ayından etibarən dəniz qəbulu sınaqlarına başlanılıb və bu sınaqlar hələ də davam edir.

Tacikistanla sərhəddə ölən Qırğızıstan vətəndaşlarının sayı 46-ya çatıb

Tacikistanla sərhəddəki münaqişə zamanı həlak olan Qırğızıstan vətəndaşlarının sayı 46 nəfərə çatıb.

Bu barədə Qırğızıstanın Səhiyyə Nazirliyi məlumat yayıb.

Qeyd edək ki, Qırğızıstanın Fövqəladə Hallar Nazirliyi Batken vilayətində fövqəladə vəziyyət rejimi elan edib. Fövqəladə vəziyyət Qırğızıstanın Tacikistanla sərhədyanı ərazilərində silahdan istifadə edilməklə qeydə alınan münaqişə səbəbindən tətbiq olunub.

İsveçrə parlamenti 36 ədəd F-35 təyyarəsinin alınmasını təsdiqləyib

İsveçrə parlamenti ölkənin hərbi hava qüvvələri parkını yeniləmək üçün 36 ədəd Lockheed Martin F-35A qırıcı-bombardmançı təyyarəsinin alınması barədə sazişi təsdiqləyib. Sövdələşmənin dəyəri 5,5 milyard dollardır.

Qərb mediası xəbər verir ki, İsveçrə hökuməti bu tip təyyarələri hələ 2021-ci ildə seçib. Tənqidçilər nəzərdə tutulan sövdələşməni izafi dəbdəbə adlandıraraq onu referenduma çıxarmağı qərara alıblar. Lakin hökumət sazişi referenduma qədər imzalayacağını bildirib. Belə ki, Lockheed Martin tərəfindən edilən mövcud təklifin müddəti 2023-cü ildə başa çatır və bundan sonra sövdələşməni eyni əlverişli şərtlərlə yenidən razılaşdırmaq çətin olacaq.

Son vaxtlar bir çox ölkələr müdafiə və silah alınması xərclərini artırmağa başlayıblar. Bu yaxınlarda Finlandiya 64, AFR 35, Kanada isə 88 ədəd F-35A təyyarəsi almaq qərarına gəlib.

AZƏRTAC-ın
materialları əsasında

Naxçıvan Muxtar Respublikasında düşmənin pilotsuz uçuş aparatı zərərsizləşdirilib

Ermənistan ordusunun təxribatlarına qarşı Azərbaycan Ordusunun sarsıdıcı zərbələrindən nəticə çıxarmayan Ermənistan silahlı qüvvələri cəbhənin müxtəlif istiqamətlərində kəşfiyyat xarakterli fəaliyyətlərini davam etdirir.

AZƏRTAC-ın Naxçıvan bürosu xəbər verir ki, Əlahiddə Ümumqoşun Ordunun mətbuat xidmətinin məlumatına əsasən, sentyabrın 16-sı gündüz saatlarında Naxçıvan Muxtar Respublikasında Əlahiddə Ümumqoşun Ordunun müdafiə mövqeləri üzərində kəşfiyyat xarakterli uçuşlar həyata keçirməyə cəhd edən Ermənistan silahlı qüvvələrinə məxsus pilotsuz uçuş aparatı (PUA) Əlahiddə Ümumqoşun Ordunun Hava Hücumundan Müdafiə bölmələri tərəfindən aşkar olunaraq xüsusi texniki vasitələrlə endirilərək zərərsizləşdirilib.

Gənc zabitlərimiz

Ənənələr idmanda da davam etdirilir

İdmana maraq uşaqlıqdan yaranır, yeniyetməlikdə dərinləşir, gənclikdə formalaşır. Bu prosesə cəmiyyətdə idman sahəsində baş verənlərin də təsiri olur, valideynlərin, müəllimlərin söhbətlərinin də.

Elnur Rəhimov Qazaxda anadan olub, burada təhsil alıb. İdmana marağı həmin illərdə yaranıb. O da idmanla məşğul olmağı qərara alıb. Ağırlıqqaldırmanı ən güclü olmaq niyyəti ilə seçib.

Məşqlərə başlayıb. Dərslərinə mane olmayan məşqlər onun həyat tərzi olub...

"Aylar sonra çəki daşları yüngülləşmişdi elə bil, daha onları asanlıqla qaldırırdım. İlk dəfə körpücük üstünə çıxdığım gün indi də yadımdadır. Çəkiyə yaxınlaşanda həyəcanlanmışdım. Gözucu məşqçimə baxdım. Onun baxışlarında ümid vardı. O ümid həyəcanımı sovuşdurdu. Çəkini qaldırdım! Məşqlərdə qaldırdığımdan 3 kiloqram çox...", - Elnur belə dedi...

Orta məktəbi bitirəndə idman ustalığına namizəd idi.

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasına qəbul olunub. Neçə-neçə mötəbər yarışda Akademiyanın, eləcə də Azərbaycanın idman şərəfini layiqincə qoruyub. "Beynəlxalq yarışların qalibi kimi fəxri kürsüdən baxanda Vətəninə rəğbət görürsən, bu rəğbətə şükürlər deyirsən", - kapitan Elnur Rəhimovun səsində qürur hiss olunurdu...

Akademiyanı bitirdikdən sonra hərbi xidmətə çağırılıb. Xidməti zamanı "Ehtiyat zabit hazırlığı kursu"na qəbul olub.

Hazırda "N" hərbi hissəsində xidmətdədir.

Hərbi hissədə idman tədbirləri müdafiə nazirinin təsdiq etdiyi plana müvafiq aparılır. Şəxsi heyətin fiziki hazırlığının yüksək səviyyədə saxlanılması üçün müxtəlif tədbirlər və yarışlar təşkil edilir.

İdmana maraq göstərən şəxsi heyət hərbiləşdirilmiş kros, daşqaldırma, hərbi beşnövçülük, atletika, futbol, səmti müəyyənetmə üzrə keçirilən yarışların qalibləri Silahlı Qüvvələr birinciliklərində iştirak edir.

Hərbi hissənin idmançıları 2022-ci ildə birlik üzrə daşqaldırma yarışlarında, hərbiləşdirilmiş kros, yüngül atletika yarışlarında birinci yeri tutub. Onlar hərbiləşdirilmiş kros qaçışında, Quru Qoşunları üzrə yarışda da qalib olublar.

Kapitan Elnur Rəhimov dedi ki, əsgərlərin fiziki hazırlığı onların döyüş hazırlığının yüksəldilməsində başlıca amillərdəndir - yüksək fiziki hazırlığa malik olan əsgərlər döyüş hazırlığını da çətinlik çəkmədən mənimsəyirlər, icra edirlər...

Hərbi hissədə idmana böyük maraq və diqqət var. Əsgərlər də, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları da günün nizam qaydalarına uyğun olaraq idmanla həvəslə məşğul olurlar. Zabit onu da bildirdi ki, idmanla müntəzəm məşğul olmaqla hərbi hissənin döyüş hazırlığının yüksək səviyyədə saxlanılması arasında üzvü bağlılıq var. Odur ki, biz buna böyük məsuliyyətlə yanaşırıq. Azərbaycan Ordusunda mövcud ənənələr, o cümlədən idman ənənələri uğurla davam etdirilir...

Mübariz MUSAYEV
"Azərbaycan Ordusu"

Nümunəvi xidmət

Nümunəvi hərbçi, qalib idmançı

İdman təkcə sağlamlıq deyil, həm də özünü təsdiq vasitəsidir - özünün nəyə qadir olduğunu da təsdiq edirsən, təmsil etdiyin quruma idman şöhrəti də gətirirsən. Qədim tarixlərlə səsləşən yüngül atletikada da belədir. Qədim yunanlar yüngül atletikanı idmanın şahı adlandırırdılar...

Tural Məmmədov Tovuzun Xaçınlı kəndindəndir. O da həqiqi hərbi xidməti ömrün mətinləşmə, formalaşma dövrü adlandırır. "Xidmətdən əvvəl də Vətəni sevmişik, bu sevginin əsl mahiyyətini hərbi xidmətdə dərk etdik. Məncə, əsgərləşmək elə bu deməkdir. Vətəni qorumağın gərəkliliyini də bilirsən, necə qorumağı da...", - Tural belə deyir. Onu da deyir ki, hərbi xidmət əsgərə həyatı sevməyi də öyrədir...

Tovuz döyüşləri Tural Məmmədovun da düşüncələrini tərpədib. Uşaqlığından aşıq yaradıcılığına bələdliyi, elin çətin anlarında igidlərin döyüşlərə yollanması, döyüşməsi ona da Vətəni sevmə yolu göstərib. Tovuz döyüşləri başlayanda Tural da Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Tovuz rayon şöbəsinə müraciət edib. El arasında "ox yaydan çıxdı" deyimi də var; Tovuz döyüşlərindən sonra Tural Məmmədov artıq hərbçi olmağı qərara almışdı...

Gizir Tural Məmmədov heç zaman idmançı olmaq haqqında düşünməyib. Bir təsadüf onun hərbi hissənin idman şərəfini layiqincə qoruyacağının zəmanəti olub.

Gizir Tural Məmmədov yüngül atletikanın qaçış növü ilə məşğul olmağa

başlayıb. Səbrlə məşqçinin məsləhətlərini dəqiqliklə mənimsəyə-mənimsəyə ordu yarışlarında iştirak hüququ qazanıb.

2021-ci ildə hərbiləşdirilmiş kros qaçışında I yeri tutub. Bu qələbə Turalın idman karyerasının başlanğıcı olub. Həmin gün medalla bərabər təşkilat komitəsinin üzvlərinin dəyərli məsləhətləri də ona gözəl könül xoşluğu vermişdi. Hərbi hissənin idman rəisi kapitan Elnur Rəhimov gizir Tural Məmmədovu həm nümunəvi hərbi qulluqçu, həm də bacarıqlı idmançı kimi təqdim etdi. Bu təqdimat bir hərbçi-idmançının karyerası haqqında etibarlı ümidə dönmüşdü. Bu ümiddə qələbələrin işığı vardı.

Öyrəndik ki, gizir Tural Məmmədov 2022-ci ildə Quru Qoşunları birinciliyində də qalib gəlib.

2021-ci ildə yüngül atletika üzrə Silahlı Qüvvələr birinciliyinin də qızıl medalını qazanıb. Həmin il Quru Qoşunları üzrə yarışda bürünc medala layiq görülüb.

- Gizir Tural Məmmədov məşqlərini intensiv davam etdirir. O, hərbi beşnövçülük yarışlarının da qalibidir. 8 kilometri 33 dəqiqə 36 saniyəyə qət edərək şəxsi rekordunu müəyyənləşdirib.

- İkinci Qarabağ müharibəsində qazandığımız Zəfərin ikinci ildönümünü şəxsi rekordumu təzələməklə qarşılamağa qərarlıyam, - gizir Tural Məmmədov belə deyir.

Turala həm hərbi xidmətində, həm də idmanda uğurlar arzulayırıq.

leytenant
Oruc MUSTAFAYEV
"Azərbaycan Ordusu"

İdman

Karateçimiz Ülvi Məmmədov dünya çempionu olub

Çexiyanın Pardubitse şəhərində Dünya Şotokan Federasiyasının (WSF) təşkilatçılığı ilə 12-ci dünya çempionatı keçirilib.

Dünya çempionatında milli komandamız da iştirak edib. Böyüklər arasında 84 kiloqram çəki dərəcəsində mübarizə aparan Ülvi Məmmədov keçirdiyi 4 döyüşün hamısını qələbə ilə başa vuraraq fəxri kürsünün birinci pilləsinə qalxıb, dünya çempionu titulunu qazanıb.

Yığmamız beynəlxalq turnirdə 4 medal qazanıb

Serbiyanın Subotitsa şəhərində gənc boksçular arasında beynəlxalq turnirə yekun vurulub.

21 ölkədən 189 idmançının mübarizə apardığı yarışı millimiz 4 medalla başa vurub.

Hindistanlı Tali Taba və qazaxıstanlı Uslam Seksenbayevi məğlub edən Kənan Babayev (48 kq) finalda Vişvanat Sureşlə (Hindistan) qarşılaşıb. Döyüşdə rəqib qələbə qazanıb, Avropa çempionumuz gümüş medala yiyələnib.

Millimizin ən ağır çəkili boksçusu Səbuhi Əlizadə (+92 kq) də turniri ikinci yerdə bitirib. Mikita Maliuta (Ukrayna) və İvan Yermolenko (Qazaxıstan) üzərində qələbə qazanan boksçumuz finalda Aleksandr Zelinskini (Ukrayna) ilə görüşüb. Görüşdə rəqib qalib gəlib, Səbuhi Əlizadə gümüş medala layiq görülüb.

Beləliklə, yığmamız turniri 2 gümüş və 2 bürünc medalla başa vurub. Komandamızın heyətində daha öncə Daniel Xolostenko (71 kq) və Fətəli İsmayılov (80 kq) 3-cü yeri tutub.

Azərbaycan samboçuları Avropa çempionatını 4 medalla başa vurublar

Azərbaycan samboçuları Serbiyanın Novi Sad şəhərində keçirilən kişilər arasında idman və döyüş sambosu üzrə Avropa çempionatını 4 medalla başa vurublar.

Çempionatda idman sambosu yarışlarında Ceyhun Hüseynov (88 kiloqram) gümüş, Mirfəttah Seyidəliyev (64 kiloqram) və Emil Həsənov (71 kiloqram) bürünc medala sahib olublar.

Döyüş sambosu yarışlarında Ramil Vəliyev (79 kiloqram) gümüş medal qazanıb.

Cüdo üzrə Azərbaycan millisi Avropa çempionatında üçüncü olub

Azərbaycanın gənc cüdoçulardan ibarət milli komandası Çexiyanın paytaxtı Praqada keçirilən Avropa çempionatında bürünc medal qazanıb.

Yığma 3-cü yer uğrunda qarşılaşmada Almaniyanı 4:1 hesabı ilə məğlub edib.

Elcan Hacyev (90 kq) Tom Drosteyə, Ruslan Nəsirli (+90 kq) Paavo Plonertə, Səbinə Əliyeva (57 kq) Bettina Bauerə, Vüsal Qələndərzadə (73 kq) Levi Markta qalib gəlib. Yeganə məğlubiyyəti Nərmin Əmirli (70 kq) alıb. O, Sara Melauya uduzub.

Finalda Türkiyəyə 4:0 hesabı ilə qalib gələn Fransa qızıl medala yiyələnib.

Fərdi yarışlarda Vüsal Qələndərzadə, Elcan Hacıyev və Vüqar Talıbov (90 kq) qızıl, Turan Bayramov (60 kq) gümüş, İsmayıl Zamanov (90 kq) isə bürünc medal qazanıb.

AZƏRTAC-ın materialları əsasında

Baş redaktorun müavini
kapitan
Məhəmməd NƏSİRLİ

Telefonlar
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

Ünvanımız
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

Növbətçi
Rəşid HÜSEYNOV

Qəzetin hesabı
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 870
Nüsxə 4660